**Azərbaycan Respublikası**

**Auditorlar Palatası Şurasının**

**2020-ci il 29 iyun tarixli 321/7 nömrəli**

**qərarı ilə təsdiq edilmişdir**

Auditor Xidmətinin Keyfiyyətə nəzarət üzrə **Qaydalara** dəyişiklik və əlavələr barədə:

Auditor Xidmətinin Keyfiyyətə nəzarət üzrə **Qaydalara** dəyişiklik və əlavələr edilsin və 2020-ci il 01 iyul tarixdən etibarən aşağıda göstərilən maddə və bəndlərə dəyişiklik və əlavələr edilərək aşağıdakı kimi qəbul edilsin:

1) 1.4.6 Müfəttiş – Palata Şurası tərəfindən təyin olunan Auditorlar Palatasının üzvü və ya əvvəllər auditor olmuş şəxs;

2) 2.1. "Şöbə" sözü çıxarılsın

3) 2.9. Nəzarət qrupuna Şura tərəfindən 10-dan çox və 5-dən az olmamaq şərti ilə müfəttişlər təyin edilir. Zərurət yarandığı halda komitənin auditor olan komitə sədri, sədr müavini və üzvləri müfəttiş kimi monitorinqdə iştirak edə bilərlər. Zərurət yarandığı halda komitənin auditor olan komitə sədri, sədr müavini və üzvləri müfəttiş kimi monitorinqdə iştirak edə bilərlər. Belə olan halda onlardan birinin iştirak etdiyi monitorinqin nəticələri səsverməyə qoyulduğu zaman onun səsi nəzərə alınmır.

4) 2.10.3 ləğv edilsin

5) 2.10.3. nəzarət qrupunun rəhbəri və ya müfəttişi monitorinqin hər hansı bir mərhələsində komitənin auditor olan komitə sədri, sədr müavini və üzvləri ilə məsləhətləşmələr apara bilərlər.

6) 2.11. 2.10.4 kimi qeyd edilir.

7) 2.11.1 - 2.11 kimi qeyd edilir və sonraki 2.11. maddələri düzgün sıralanır.

8) 2.22 Nəzarət qrupunun rəhbəri yoxlamanın yekunlarına dair hesabatın layihəsini təyin olunmuş iclasa qədər fəaliyyəti yoxlanılmış auditorun rəhbərinə təqdim edir. Auditorun rəhbəri hesabatın layihəsi barədə irad və təkliflərini bildirmək hüququna malikdir. Auditorun rəhbəri 3 iş günü ərzində komitəyə yazılı qaydada irad və təkliflərini bildirmədiyi halda, hesabatla razı olduğu kimi qiymətləndirilir.

9) Yoxlama sözü monitorinq sözü ilə əvəz edilsin

10) Əlavə edilsin: 3.4.13. Nəzarət qrupunun rəhbəri və ya müfəttişi monitorinqi yalnız ona təqdim edilmiş sənədlər əsasında aparır. Nəzarət qrupunun rəhbəri və ya müfəttişi hesabat layihəsini tərtib etdikdən və auditorun rəhbərinə təqdim etdiyi tarixdən 3 gün sonra onlara təqdim edilən sübutlara qiymət verməyə və bu sübutları nəzərə almaya bilərlər.

Digər maddə və bəndlər dəyişilməz olaraq qalır.

Tərtib etdilər:

Keyfiyyətə nəzarət üzrə

komitənin sədri, sərbəst auditor V.Kərimov

Keyfiyyətə nəzarət üzrə

komitənin sədr müavini, sərbəst auditor E.İbrahimov